# MƏNİM TƏZADLI DÜNYAM



Şöhlət ABBAS

### DÜŞÜR

Yavaş-yavaş ömür keçir,
Saça dən düşür, dən düşür.
Sənə işi düşməyən də
Dostlar gen düşür, gen düşür.

Başdan-ayağa bir təzad,
Qəribədir, quzum, həyat.
Bacar bir zirvəylə boy at,
Dağa çən düşür, çən düşür.

Aldanıb toy-büsatına,
Ömrü verdin inadına.
Daha Şöhlətin yadına
Sevinci qəmlə tən düşür.

### ŞƏHİDİM MƏNİM

Hər biri bir elin ciyərparası,
Qürurum, güvəncim, igidim mənim.
Vətən bütöv olsun, tam olsun deyə
Ömrü yarım qalan şəhidim mənim.

Qəlbləri titrədib həyəcanıyla,
Arzusu, ümidi, min gümanıyla,
Torpağı boyayıb qızıl qanıyla,
Bayraq tək ucalan şəhidim mənim.

Arzusu yurdunda gül olub bitən,
Sənə minnətdardır bu el, bu vətən.
Ruhun qarşısında baş əyirəm mən,
Dünyaya səs salan şəhidim mənim.

### DÜNYA BİZİM...

Dünya bizim kənd boydaydı,
Hər məhəllə - kiçik ölkə.
Məndən xoşbəxti yoxuydu,
Elə bədbəxti də bəlkə.

Hərdən qaçıb sığınardıq
Anamızın qucağına.
Xatirədən boylanıram
İndi ömrün o çağına.

Yaman nazlı-duzlu idi,
Qonşumuzun qara qızı.
Dili şirin sözlü idi
İlk eşqimin yaramazı.

Üzüyola, sözəbaxan,
Hərdən tənbəl, dəcəl idik.
Hərdən azman bir qəhrəman,
Hərdən kosa, keçəl idik.

O çiçəkli, güllü günlər,
Gənclik - ömrün qızıl tacı.
Xatirələr sızlar, inlər, -
Qocalığın ehtiyacı...

Dünya bizim kənd boydaydı,
Hər məhəllə - kiçik ölkə.
Məndən xoşbəxti yoxuydu,
Elə bədbəxti də bəlkə.

*Bakı, 21.01.2021.*

